

***Seyran CAVADOV***

## *Qarabağ ağrılı misralar*

### Qarabağ bayatıları

Əziziyəm, Qarabağ,
Dağ başında qara bax.
Qarabağ qəlbimdədir,
Yar köksümü, ara, bax.

Naçaram, ay naçaram,
Yaman dərdə düçaram.
Qarabağ göylərində
Haçan azad uçaram.

Əziziyəm, ada bax,
Dostuma bax, yada bax.
Düşmən nəğməmi oxur,
Dilimdəki dada bax.

Pis qonşu bir dərd imiş,
Bu dərd qəddimi əymiş.
Qoynuma sığındırdım,
Sən demə, namərd imiş.

Haqq divanı qurulsun,
Aqillər hakim olsun.
Qonşum nankor çıxıbdır,
Çörəyim onu vursun.

Ağırdır Vətən dərdi,
İtirdik neçə mərdi.
Qarabağım, sayıq ol,
Düşmən çox hiyləgərdi.

Dağlar qoynunda bir kənd...
Durub İmarət-Qərvənd.
Əlim yetişə bilmir,
Kəsilibdir bərə, bənd.

Əziziyəm, mənimdir,
Babamındır, mənimdir.
Xankəndi olan adın,
Vartan, nəyi sənindir?

Qulağım alar səsi,
Oxuyub çalan kəsi.
Vətən, qeyrət rəmzidir,
"Qarabağ şikəstəsi".

Əzizim, Şuşadadı,
Gül, bülbül Şuşadadı.
Gəzdim ellər, obalar,
Vermədi Şuşa dadı.

Əli "əllər" əlində,
Yaxam namərd əlində.
Görüm başına dəysin
Sənin kirvəliyin də.

Yenə xəbər bəd gəldi,
Gəldi, qəlbimi dəldi.
Yaram soyumamışdı,
Dərdim üstə dərd gəldi.

Batmaz heç vaxt haqq səsi,
Düşündürər hər kəsi.
Qan yaddaşımda yaşar
Xocalı faciəsi.

Yurdun oğulları var,
Dünya olub ona dar.
Xocalının qisasın
Almağa məqam arar.

Namərd yurd sala bilməz,
Qalamda qala bilməz.
Şuşa qeyrət qalamdır,
Düşməndə qala bilməz.

Ölməz heç vaxt şəhidlər,
Mərd igiddi şəhidlər.
Vətən, yadında saxla,
Şəhidlər şahiddilər.

Görüm kor olsun yağı,
Kor qoydu Qarabağı.
Biz gördük, sonraklar
Unutmasın bu dağı.

Ürəyimin başıdır,
Gözlərimin yaşıdır.
Azərbaycan üzüksə,
Şuşa onun qaşıdır.

Unutmarıq o çağı,
O dağları, o bağı.
Həsrətinə dözməyir
Ürək, İsa bulağı.

Bu ömür nə ömürdü?!
Üzüm nələri gördü?!
Dünən quyruq bulayan
Bu gün üstümə hürdü.

Əzizim, isti suda,
Şəfa var İstisuda.
Dərd vurub ciyərimə,
Tapılmır "İsti su" da.

Mən aşiq, necədirlər?
Gündüzlər gecədirlər.
Qərib qalan məzarlar,
Görəsən, necədirlər?!

Dedilər, durun, qaçın,
Quş təki qanad açın.
Uçduq öz yuvamızdan,
Yağıya qaldı Laçın.

Adam var, özün yıxır,
Dərdi yandırır, yaxır.
Şuşanı düşündükcə
Başımdan tüstü çıxır.

Mən aşıq Qarabağa,
Can qurban Qarabağa.
Vermərəm bir qarışın,
Göydən yerə od yağa.

Qarabağın dağları,
Bağçaları, bağları.
Çətin gündə gəl sına
Dostu, yoldaşı, yarı.

Əzizim, Qarabağı,
Unutmaram du dağı.
Oğullar qurban getdi,
Analar deyir ağı.

Əzizim, Qarabağı,
Dolan, gəz Qarabağı.
Analar bundan sonra
Görməsin oğul dağı.

## *Torpağı kişilər qorusun gərək*

Vətənimin oğulları,
Qarabağı dar ayaqda,
yaman gündə
Qoyub hara gedirsiniz?!
Dəstə-dəstə, maşın-maşın
Hara belə köç edirsiz?!
Araz axır, Kürüm axır,
Yaxın baxır, uzaq baxır...
Başı qarlı dağlar baxır...
Araz boyu, Kürün boyu
Hara belə köç edirsiz?!
Çaylar axıb son mənzilə
qovuşanda
Dəniz olur, ümman olur.
Bəs siz hara axırsınız?!
Nənələrin, babaların
Ruhu yatan o yerləri,
O daşlaşan, torpaqlaşan
qəbirləri,
O dağları, dərələri,
O kəndləri, şəhərləri
Tərk edəndə, Vətən dönüb
damla olar.
Qeyrətsizlik, hünərsizlik
Bir nəsilə damğa olar.
Bu torpağı qorumasaq,
Bizdən sonra gələnlərin
Qınağına hədəf olluq.
Ya qoruyaq bu torpağı
kişi kimi,
Ya məhv olaq biz bir yolluq.
Vətənimin oğulları,
darıxmayın,
heç qorxmayın,
Tək deyilik,
Üç deyilik, beş deyilik,
Biz milyonuq, neçə milyon!..
Bu milyonlar yumruq olsa,
Bir-birinə yaxınlaşsa,
Dilbir olsa, əlbir olsa,
canbir olsa,
Tülkü düşmən dovşan olar.
Dovşan da ki qorxaq olar...
Vətənimin oğulları,
darıxmayın,
sıxılmayın.
O ağbirçək qarıları,
O ağsaqqal qocaları,
Qadınları, uşaqları,
Xəstələri, əlilləri,
O ismətli gəlinləri
Xain düşmən gülləsindən,
Hiyləsindən, tələsindən
qorumaqçın
Tez döndərin ya Muğana,
ya Şirvana,
Ya Bakıya, ya Şəkiyə,
Lənkərana.
Hər obada, hər bir evdə
Doğma kimi, əziz kimi
yaşasınlar.
Ocaqların, sobaların
Lap başında otursunlar.
Savaş işi, dava işi
Kişi işi, ər işidir.
Baxışından alov saçan
nər işidir.
İgidlərim, ərənlərim,
gəlin, gəlin.
Dəstə-dəstə, alay-alay
Bölüşərək, biz atılaq
bu meydana,
Qan udduraq qanımıza
susayana.
Gəlin, gəlin, bu torpağı,
Bu Vətəni qoruyaq biz.
Vətən bizim namusumuz,
arımızdır.
Vətən bizim dövlətimiz,
varımızdır.
Vətən bizim anamızdır,
bacımızdır,
qızımızdır.
On minimiz, yüz minimiz,
milyonumuz
Şəhid olsa, qırılsa da,
Anamıza ana olan
torpaq qalar,
Vətən qalar.
Vətən qalsa, millət yaşar.
Millət varsa, nəsil-nəsil,
Yarpaq-yarpaq, fəsil-fəsil
Cücərərik, göyərərik,
Pərvazlanıb böyüyərik.
Vətən getsə, millət ölər.
Nizaminin, Füzulinin,
Nəsiminin, Xətayinin
Yandırdığı çıraq sönər,
ocaq sönər.